# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №14 (84) • 16.04.2012


AzadliqRadiosu.az


**Jennifer Lopezi Bakıya gətirirlər**
səh.2

**İctimai Palata aprelin 22-də yürüş-mitinq keçirməyi düşünür**
səh.3

**Sabirabadın Minbaşı kəndinin sakinləri yürüş etdilər**
səh.5

**Азербайджанские евреи - московские миллиардеры**
səh.7

Tələbə sualı: **«Özünə iş tapmısan?»**
səh.11

**Prezidentin və baş nazirin nəyi var?**
səh.14


## Maraqlı videolar

- Ermənistanda Azərbaycan Film Festivalına etiraz
- Batan "Titanik"in arxiv görüntüləri
- Alkoqola görə 80 şallaq cəzası

www.AzadliqRadiosu.az

# Ev tikmək çox asan olacaq?



*Milli Məclis yeni qanun hazırlayır* səh.4

## Бжезинский: «Нефтепровод BTC под угрозой, если Израиль атакует Иран»

Збигнев Бжезинский, бывший советник по национальной безопасности во время президента США Джимми Картера, считает возможной "вторую войну России против Грузии", в случае атаки Запада на Иран: «В этом случае, есть возможность конфликта также и между Азербайджаном и Ираном».

səh.7

Sözsüz




**Bir agentliyə büdcədən 121 milyon manat ayrılıb...**
səh.3

**Polis zabitlərinin borc mübahisəsi**
səh.6

**MTN-in saxladığı şəxslərin ailə üzvləri nə deyir?**
səh.10

**Füzulinin Kərbəladakı məzarı hovuzun altında qalıb**
səh.12

# Cavad Xanın dəftərxanası söküldü



Cavad Xan dəftərxanası

*Gəncə Şəhər Mədəniyyət İdarəsinin baş inspektoru Bəxtiyar Muradov bildirib ki, bina qəzalı vəziyyətdə olduğundan şəhər rəhbərliyi onun sökülməsinə qərar verib. Sököntünün yanında aqlay və qırmızı kərpiclərlə tikilmiş müasir tipli yeni dəftərxana da inşa edilib, təmir işləri gedir. Dəftərxananın işçiləri isə müvəqqəti olaraq başqa yerdə fəaliyyət göstərirlər.*

Mirzə Abbas Abbaszadə küçəsi 68 ünvanında yerləşən Cavad Xan dəftərxanası XVIII əsrdə tikilmişdi. Bir vaxtlar şairlər - Mirzə Şəfi Vazeh və Nikolaz Baratişvili burada Cavad Xanın mirzələri kimi çalışıblar. 1968-ci ildən tarixi abidə kimi qorunan bu bina qədim qırmızı Gəncə kərpicləri ilə tikilibmiş.

**Abidənin necə sökülməsini görmək üçün AzadlıqRadiosunda videoya baxa bilərsiniz.**

***Gülnur Raqifqızı***

# Əvəz Zeynallının həbs müddəti uzadıldı

**Aprelin 12-də Nəsimi Rayon Məhkəməsi "Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallının həbs müddətinin daha 1 ay uzadılması haqda qərar çıxarıb. «Onun həbs müddəti aprelin 20-də başa çatırdı, bu müddət mayın 20-nə qədər uzadılıb». Bu barədə AzadlıqRadiosuna onun həyat yoldaşı Məlahət Zeynallı məlumat verib.**

«Xural» qəzetinin baş redaktoru Əvəz Zeynallı aprelin 12-də yenidən Nəsimi Rayon Məhkəməsinə gətirilib: «Vəkillərin iştirakı olmadan proses başlayıb. Biz narahatıq ki, istintaq dövründə onun həbs müddətini bir qədər də uzada bilərlər. O, əsassız yerə yenə də həbsdə qalar. Onun həbsini bir dəfə yanvarın 28-dən aprelin 20-dək uzadıblar. Heç bir şey sübut olunmayıb və günahsız yerə 5 aydır ki, həbsdədir».

Məlahət Zeynallı deyir ki, vəkillərin iştirak etməməsi onlara proseslə bağlı məhkəmədən xəbər verilməməsi ilə bağlıdır. «Xural» qəzetinin baş redaktoru Əvəz Zeynallı ötən il oktyabrın 28-də həbs olunub. Ona qarşı Cinayət Məcəlləsinin 213.1 (Xeyli miqdarda vergiləri və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınma) maddəsi ilə ittiham irəli sürülüb.

***Maarif Çingizoğlu***

# Jennifer Lopezi payızda Bakıya gətirirlər



Jennifer Lopez

*Jennifer Lopez də daxil olmaqla dünyanın bir neçə tanınmış müğənnisi bu ilin sentyabr-oktyabr aylarında Azərbaycanda keçiriləcək 17 yaşadək qızlar arasında futbol üzrə dünya çempionatının açılış mərasimində iştirak etmək üçün Bakıya gələcəklər. Bu barədə AzadlıqRadiosuna AFFA İnformasiya və İctimaiyyətlə Əlaqələr Departamentinin rəisi Mikayıl Nərimanoğlu məlumat verib: «17 yaşlı qızlar arasında dünya çempionatının açılış mərasimində Jennifer Lopez ilə yanaşı, bir neçə başqa məşhur müğənninin də iştirakı nəzərdə tutulur. Jennifer Lopezdən artıq ilkin razılıq alınıb. Digərləri ilə bağlı məsələ təsdiqlənmədiyi üçün onların adlarını hələlik açıqlamırıq».*

Jennifer Lopezə Bakıya gəlməsi üçün hansı məbləğin təklif edilməsi məsələsinə gəlincə Mikayıl Nərimanoğlu deyir ki, bu məsələlərlə bağlı AFFA-nın təşkilat komitəsi iş aparır. Ona görə bu barədə ətraflı məlumatlar sonra yayılacaq. Sentyabrın 22-də start götürəcək 17 yaşadək qızlar arasında futbol üzrə dünya çempionatı oktyabrın 13-də başa çatacaq. Çempionatda iştirak etmək üçün Bakıya 15 ölkənin yığma komandası gələcək.




## «Qaynar Xətt»dən hüquqşünas məsləhəti al!

Qarşılaşdığın problemlər, qanunsuz davranışla bağlı **"Qaynar Xətt"**ə yaz, hüquqşünaslardan məsləhət al. Suallara hər həftənin şənbə günü **saat 18:05-dən 19-00-a** qədər hüquqşünaslar canlı efirdə **"Qaynar Xətt"** verilişində cavab verəcəklər.

**"Qaynar Xətt"lə əlaqə vasitələri:**

İstənilən vaxtda qaynar xəttimizə - **(012) 436 77 41** nömrəli telefona zəng edib sual və şikayətinizi səsləndirə bilərsiniz. Zənglər avtomat tərəfindən qəbul olunduğundan, rica edirik şikayətinizi bildirəndən sonra əlaqə nömrənizi də deyəsiniz ki, sizinlə əlaqə saxlaya bilək.

Yalnız canlı efir zamanı hər həftənin şənbə günü **saat 18:05-dən 19:00-a** qədər **efir@azadliqradiosu.az** elektron ünvanımıza e-mail şəklində, **(+99450) 7441017** nömrəsinə SMS şəklində şikayətlərinizi yaza bilərsiniz ki, suallarınız canlı efirdə cavablandırılsın.

İstənilən vaxtda suallarınızı, problemlərinizi foruma da yaza bilərsiniz. Həmçinin cavablar sayta göndərilmiş suallara əlavə olunacaq.




Sevda İsmayıllı hər həftənin çərşənbə günü, günorta **saat 12-də** efirə bir sualla başlayır: **"Bir "Can Bakı" deyərsizmi?"**... Bakının ictimai və mədəni yaşamı, düşüncə və əyləncə həyatı haqda, maraqlı şəxslərin iştirakı ilə keçirilən bu proqramın təkrarları da həftə boyu AzadlıqRadiosunun efirində səslənir. **"Can Bakı"nı AzadliqRadiosu.az** saytında da dinləyə və oxuya bilərsiz.

# İlham Əliyev: «İcra başçısı təyin edəndə tapşırıram ki, təmiz işləməlisən»


İlham Əliyev

«Mən hər dəfə, hər bir yerə, hər bir rayona icra başçısı təyin edəndə tapşırıram ki, təmiz işləməlisən, insanlarla bir yerdə olmalısan, insanların qayğıları ilə yaşamalısan». Bu fikirləri prezident İlham Əliyev Ağstafada ictimaiyyət nümayəndələri ilə görüşdə deyib: «Harada ki, seçim düzgündür, orada işlər daha yaxşı gedir. Harada ki, bu seçimdə səhvə yol verilib, orada işlər o qədər də yaxşı getmir, yaxud da ki, pis gedir. 8 ildən artıqdır ki, prezidentəm. Bu illər ərzində elə yerlər var ki, orada icra başçısı bir neçə dəfə dəyişilib. Etimadı doğrultmaq lazımdır. Harada ki, icra başçısı bunu doğruldur o, mənim tərəfimdən qiymətləndirilir, dəstəklənir. Harada ki, özünü doğrultmur, əlbəttə ki, orada biz tədbirlər görürük. Mənim bölgələrə səfərlərimin səbəblərindən biri də məhz bundan ibarətdir ki, gedim öz gözümlə görüm. Özüm görüm ki, insanların əhvali-ruhiyyəsi necədir?!».
Prezident deyib ki, gərgin iş qrafiki olmasına baxmayaraq, onun bölgələrə səfərləri həm özü, həm də orda yaşayan insanlar üçün çox əhəmiyyətlidir. İlham Əliyevə görə, bu, həm də dövlət məmurlarını daim səfərbər vəziyyətdə saxlayır.
**Məlumatı AzərTAc yayıb.**

# İctimai Palata aprelin 22-də yürüş-mitinq keçirməyi düşünür



İctimai Palata (İP) aprelin 22-nə planlaşdırdığı aksiyanın yürüş-mitinq olacağını bəyan edir. Aprelin 13-də İctimai Palatanın Koordinasiya Şurası növbəti aksiyanı müzakirə edib.
Müsavat Partiyasının başqan müavini Gülağa Aslanlı AzadlıqRadiosuna deyib ki, 22 aprel yürüş-mitinqi üçün meriyadan «Nərimanov», «Təbriz» kinoteatrları və ya metronun «Dərnəgül» stansiyası istiqamətindəki marşrutlardan biri istəniləcək. Aprelin 8-də İP Bayıl qəsəbəsi, «20-ci sahə» adlanan ərazidə yerləşən sürücülük məktəbinin həyətində razılaşdırılmış mitinq keçirib.

# Bir agentliyə büdcədən 121 milyon manat ayrılıb...




*Budget.az saytı hökumətin 2012-ci ildə dövlət büdcəsindən ayıracağı investisiya xərclərinin siyahısını açıqlayıb. 2012-ci ilin dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu üçün 5 milyard 774 milyon 100 min manat nəzərdə tutulub. İnvestisiya xərclərinin strukturu belədir: Aqrar və meliorasiya, ekoloji, hüquq-mühafizə və məhkəmə hakimiyyəti orqanları, nəqliyyat, səhiyyə, mədəniyyət və idman sferası üzrə investisiyalar, içməli su təchizatı layihələri və Təhsil Nazirliyinin sərəncam verdiyi investisiya xərcləri.*
Gələn il dövlət büdcəsindən Fövqəladə Hallar Nazirliyinə 141 milyon, Bakı Şəhər İcra Hakimiyyətinə 327 milyon, Prezidentin İşlər İdarəsinə 63 milyon manat ayrılıb. O cümlədən İşğaldan Azad Olunmuş Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Agentlik 121 milyon, Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialına 13 milyon, Tibb Universitetinə 15 milyon manat investisiya xərcləri bölünüb.

***Səadət Akifqızı***

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun


**Belarus müxalifətinin lideri Andrey Sannikov azad edilib**


Leyla Əliyeva: **«Adətən mən rəsm çəkməyə başlayanda dayana bilmirəm...»**


İlham Şaban: **"Nabucco"nun sirri**


**Xaricdə təhsil üçün əsas sahələr açıqlandı**



**Çeçenistanda «Dedi-qodusuz yer» adlı kampaniyaya başlayıblar**

# Ev tikmək çox asan olacaq?

## Milli Məclis yeni qanun hazırlayır


Səyyad Kərimov

**Yeni Tikinti və Şəhərsalma Məcəlləsi qəbul olunandan sonra 1-2 mərtəbəli fərdi ev tikmək qəzet açmaq kimi asan olacaq. Tikintiyə başlamaq üçün bu sahəyə cavabdeh quruma, sadəcə, xəbərdarlıq məktubu göndərmək kifayət edəcək. Cavabdeh qurum bir ay ərzində təklif və irad bildirməyəcəksə, bu, razılıq əlaməti sayılacaq. Bu fikirlər aprelin 13-də Tikinti və Şəhərsalma Məcəlləsi layihəsinin ictimai müzakirəsi zamanı səslənib. Layihə müəlliflərindən biri, Milli Məclisin İnzibati və Hərbi Qanunvericilik Şöbəsinin müdir müavini Səyyad Kərimov layihədə tikintiyə icazənin xeyli sadələşdirildiyini deyir:**

### TİKİNTİDƏ DƏ VAHİD PƏNCƏRƏ

«Tikintisinə icazə tələb olunan və olunmayan obyektlər var. Hündürlüyü 12 metrə qədər olan fərdi ev tikmək istəyən şəxs layihəni və tikinti ilə bağlı ərizəni müvafiq icra hakimiyyəti orqanına təqdim edəcək. Həmin qurum 1 ay ərzində irad və təkliflərini bildirməzsə, həmin şəxs heç bir icazə almadan tikintiyə başlaya bilər». Səyyad Kərimova görə, təklif və iradların bildirilməsi də tikintiyə icazə verilməməsi anlamına gəlməməlidir. Burda, sadəcə, layihənin tikinti və şəhərsalmaya uyğunluğu ilə bağlı sənədlər tələb oluna bilər. Layihə həmçinin icazəli tikintilərlə bağlı işlərin «vahid pəncərə» prinsipi ilə həyata keçirilməsini nəzərdə tutur.

### LAYİHƏ BARƏDƏ FİKİR AYRILIQLARI

Elə bu prinsipin tətbiqinə görə də yeni layihədə sovet dövründən qalma tikintinin istismara qəbulu institutundan imtina olunur: «Çünki bu məsələ çox mürəkkəb bir proseduradır. Hər birinin öz marağı olan onlarla dövlət qurumu bu işə cəlb olunurdu. Layihədə «vahid pəncərə» sisteminin bir hissəsi kimi tikintinin istismarına icazə institutu nəzərdə tutulur».

Layihə müəllifi Səyyad Kərimova görə, «vahid pəncərə» sistemini həyata keçirən qurum tikintiyə nəzarətlə yanaşı, onun istismara yararlığını qəbul edəcək. Amma layihəni şərh edən Amerika Ticarət Palatasının nümayəndəsi Şahid Şükürov «vahid pəncərə» prinsipinin layihədə aydın izah olunmadığını deyir. O, hesab edir ki, tikintinin başlaması anından bitməsinə qədər bütün proses sənəddə aydın göstərilsə, daha yaxşı olardı. Bundan başqa o, təklif edir ki, tikinti ilə şəhərsalma, bir çox Avropa ölkələrində olduğu kimi, ayrı-ayrı məcəllələrlə tənzimlənsin.


Şahid Şükürov

Səyyad Kərimov isə bu iradları qəbul etmir. Deyir vahid pəncərə ilə bağlı layihədə hər şey aydın göstərilib. Qaldı ki, bu məsələnin iki ayrı məcəllə ilə tənzimlənməsinə, o, deyir ki, tikinti ilə şəhərsalma bir-birinə çox bağlıdır.

### «VƏTƏNDAŞ HEÇ VAXT ALDADILMAMALIDIR»

Tikinti haqqında ayrıca məcəllənin qəbulunun tərəfdarı olan Milli Məclisin İqtisadi Siyasət Komitəsinin üzvü Vahid Əhmədov isə hesab edir ki, yeni məcəllə tikintidə heç də bütün problemləri həll edə bilməyəcək: «Əhali arasında çox ciddi problemlər var. Misal üçün, Füzuli küçəsi ətrafında evləri sökülən adamlar bilmir hara müraciət etsin. Biri deyir «1 kv.m.-ə 1500 manat kifayətdir», o biri deyir «yox, mənim evimin kvadratı 4 mindir». Bu siyasət əhali arasında böyük narazılıqlar yaradır. Qiymət məsələsi Tikinti və Şəhərsalma Məcəlləsində öz əksini tapmalıdır. Bilməliyik ki, vətəndaşın torpağını əlindən alırıqsa, evini sökürüksə, onun qiyməti nədir. Vətəndaş heç vaxt aldadılmamalıdır. Ona bazar qiyməti ödənilməlidir».

Elə Bakının mərkəzindəki mənzilindən çıxarılan Afaq İsmayılova da AzadlıqRadiosuna deyirdi ki, onun əmlakının hər kvadratmetrinə müstəqil qiymətləndirmə şirkəti 2400-2800 manat qiymət qoyduğu halda, ona 1500 manat ödənir.

### İCAZƏSİZ TİKİLİLƏR NƏ VAXT SÖKÜLƏ BİLƏR?

Layihədə icazəsiz tikililərlə bağlı da müəyyən proseduralar nəzərdə tutulur. Belə ki, təklif edilən məcəllə icazəsiz tikililərin sökülməsinə yol vermir. Səyyad Kərimov deyir ki, obyekt hansısa səbəbdən icazəsiz tikilibsə, dövlət qurumlarının vəzifəsi onu sökmək yox, tikintinin məcəllənin tələblərə uyğun gəlib-gəlmədiyini araşdırmaq olacaq: «İcazəsiz tikinti qanunvericiliyin bütün tələblərinə uyğun tikilibsə və təhlükəsizlik baxımından problemsizdirsə, onu sökməyin əhəmiyyəti yoxdur. Çünki icazəsiz olsa da, məqsədə çatılıb və həmin obyekt leqallaşdırılmalıdır. Qanunvericiliyin tələbi pozulubsa, onda qanunla müəyyən edilən qaydada tikintiyə icazə verən qurum tərəfindən sökülə bilər».

### TİKİNTİDƏ QONŞU MARAĞI

Yeni layihədə bir məsələ də başlanması nəzərdə tutulan tikinti barədə qonşuların məlumatlandırılması və onların rəyinin nəzərə alınmasıdır. Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin rəis müavini Elxan Əsədov deyir ki,



Elxan Əsədov

hündürmərtəbəli evlərin tikintisinə icazə veriləndə, ətrafda olan tikintilər və ərazidə yaşayan insanların rəyi nəzərə alınacaq. Tikinti işləri kiminsə maraqlarına toxunmamalıdır. Əks halda, tikintiyə icazə verilməyəcək.

Tikinti və Şəhərsalma Məcəlləsi layihəsinin parlamentin yaz sessiyasında müzakirəyə çıxarılacağı gözlənilir.

***Maarif Çingizoğlu***

# Sabirabadın Minbaşı kəndinin sakinləri yürüş etdilər

*Aprelin 10-da Sabirabadın Minbaşı kəndinin 600-ə yaxın sakini rayon icra hakimiyyətinin binası qarşısına yürüş edib. Polis onların qarşısını kəssə də, camaat polis kordonunu yarıb. Ərazidən keçən dəmir yolu xəttinin üstündə polislə sakinlər arasında qarşıdurma olub. Minbaşı kəndinin sakinləri 2010-cu ildə baş verən daşqınlardan sonra onlara kompensasiyaların verilməməsinə etiraz edirlər. Camaat deyir ki, yerli icra strukturları onlara çatacaq kompensasiyaları mənimsəyib. Yürüşçülər «Biz kompensasiyaları yerli icra strukturlarından yox, prezidentdən istəyirik», «Biz dövlət başçısını istəyirik, o gəlsin» şüarları səsləndirir. Əllərində prezident İlham Əliyevin şəkilləri olan sakinlər Sabirabad Rayon İcra Hakimiyyətinin qarşısına doğru yürüşü davam etdiriblər.*

Şirvan və Sabirabad rayon polis şöbəsinin əməkdaşları, Daxili Qoşunların bir neçə hərbçisi də ərazidə olub. Minbaşı kəndinin yüzlərlə sakini kənddən yürüş edərək Kür çayının üstündən keçən körpünü bağlayıb. Qonşu Dadaşbəyli kəndinin sakinləri onlara qoşulublar. Bundan sonra rayonun polis rəisi Mübariz Quliyev kənd sakinləri ilə icra başçısı Nazim İsmayılov arasında telefon əlaqəsi yaradıb. İcra başçısı onları qəbul edəcəklərini bildirib.

Daha sonra rayon icra başçısı Minbaşı kəndinin sakinlərini Qarağac kəndinin icra nümayəndəliyində qəbul edib. Görüşdən çıxan adamlar isə vədlərin yerinə yetiriləcəyinə inanmadıqlarını bildiriblər. Deyiblər ki, bundan əvvəl də belə vədləri çox eşidiblər. Onlar deyiblər ki, «bizə quru söz yox, bizə verilməli olan kompensasiyalar lazımdır».



Hazırda Fövqəladə Hallar Nazirliyinin nümayəndələri Minbaşıda evlərə baxış keçirir. 2010-cu ildə daşqın zamanı Azərbaycanın 8 rayonunda 100 min hektardan çox sahəni və 20 min evi su basıb. Ümumilikdə, 2012-ci ilin martına kimi dövlət tərəfindən daşqının nəticələrinin aradan qaldırılmasına 350 milyon manata yaxın vəsait ayrılıb. Bu il martın 29-da prezidentin sərəncamı ilə əlavə olaraq 50 milyon manat ayrılıb.

***Maarif Çingizoğlu***

# Azərbaycanda səhiyyənin özünün müalicəyə ehtiyacı var?



**Loğman Əliyev**

*"Son 4 ildə tibbi sığorta islahatlarının yerinə yetirilməsi üçün hər il dövlət büdcəsindən 30 milyon manat vəsait ayrılır, amma hələ ortada heç nə yoxdur. Hələ həqiqi mənada islahatlar gedə bilmir. Problemlərin qalmasında maraqlı olanlar var, kimlərsə buradan böyük miqdarda vəsait əldə edir". Bu iddianı AzadlıqRadiosunun "Korrupsiometr" proqramında İqtisadi Təşəbbüslərə Yardım Mərkəzinin rəhbəri Azər Mehtiyev səsləndirdi.*

O, hesab edir ki, hazırda Azərbaycanda işini yaxşı bilən həkimlər çox olsa da, idarəetmə sistemi onların bir çoxunu xəstənin əlinə göz dikməyə məcbur edir:

- Bu gün heç kəsə sirr deyil ki, hansısa həkim vəzifə tutmaq üçün pul verməli olur. Yaxud ona haqq ödəmək məcburiyyəti qoyulursa, o da kimdənsə pul almalı olur.

Azərbaycanda səhiyyəyə böyük pullar qoyulsa da, bu sistemdə islahatlar zəifdir. Ciddi siyasi iradə tələb edir tibbi sığortanın tətbiq olunması üçün. Neqativ hallara səbəb olan bir vəziyyət də həkimlərin həm də özəl xəstəxanalarda işləmələridir, təsəvvür edin, həkim dövlət xəstəxanasına gələn xəstəyə deyir ki, burada müalicə edə bilmirəm, filan şey yoxdur. Sonra da deyir ki, onun işlədiyi özəl xəstəxanaya getsin. Yəni burada maraq söhbəti var.

Proqramın digər qonağı, Xocasən Sağlamlıq Mərkəzinin baş həkimi Loğman Əliyev isə səslənən tənqidləri əsassız adlandırır. O, qeyd edir ki, son illər Azərbaycanda səhiyyənin maddi-texniki bazası olduqca yaxşılaşdırılıb və dövlət xəstəxanalarında bütün səhiyyə xidmətləri pulsuzdur:

- Daha xəstələr xaricə çox getmir. Çünki indi hətta ürək əməliyyatları da Azərbaycanda olunur. Gedənlər də bizim həkimlərin işinin keyfiyyətini onlarla müqayisə edir və bir daha da müalicə üçün xarici ölkəyə üz tutmurlar.



**Hacı Hacılı**

Verilişə İsveçrədən qatılan Hacı Hacılı da qeyd edir ki, Azərbaycan həkimləri heç də İsveçrədəki həkimlərdən savada görə geri qalmırlar:

- İsveçrədə həkimlərin yüksək əməkhaqqı və icbari sığorta sistemi var. Əgər həkim yardımçısı kimi işə başlayan bir nəfər 6 min avro əməkhaqqı alırsa, onun rüşvət də alması absurd səslənəcək. İsveçrədə daha çox öz sahələrinə yönəlmiş həkimlərdir.

**Polemikanı AzadlıqRadiosu.az saytının "Korrupsiometr" bölümündə dinləyə bilərsiniz.**




**Dəyərli oxucular!** AzadlıqRadiosunun korrupsiya halları ilə bağlı maraqlı araşdırmalarını, xəbər və reportajlarını azadliqradiosu.az saytında **"Korrupsiometr"** bölümündə oxuyun. Səs yazılarını dinləyin, videolara baxın. **"Korrupsiometr"** proqramında polemikalar:

**Hakim məmurun vəkili olub?**
**Nəqliyyat Nazirliyi 5 milyard manata nə iş görüb?**
**Ünvanlı sosial yardım ünvanına necə çatır?**

# Polis zabitlərinin borc mübahisəsi



Mahmud Tağıyev

**Keçmiş polis işçisi Mahmud Tağıyev AzadlıqRadiosunun «Qaynar Xətt»inə şikayət edib. Deyir, 10 il əvvəl Bakı Şəhər Baş Polis İdarəsində işləyən tanışı Rasim Abdullayev ondan evinin tikintisini başa çatdırmaq üçün 15000 dollar borc alıb. 10 ildir ki, pulunu ondan geri ala bilmir:**

**«10 İL ƏVVƏL VERDİYİM 15000 DOLLARI GERİ ALA BİLMİRƏM»**

Mahmud Tağıyev olanlar haqqında danışır: «10 il əvvəl Bakı Şəhər Baş Polis İdarəsinin Kadrlar İdarəsində işləyən Rasim Abdullayevlə həmin idarənin hazırda təqaüddə olan keçmiş əməkdaşı Cavad Nuriyevin vasitəsilə tanış olmuşam. Rasim Abdullayevlə yaxın münasibətlərimiz vardı. Həmin vaxt məndən 15000 dollar istədi ki, yarımçıq qalmış evini tikdirib başa çatdırsın. Mən də inanıb verdim. Elə həmin ərəfələrdə mənə təklif elədi ki, Abşeron Rayon Polis İdarəsində sahə inspektoru vəzifəsi boşdur, istəyirsən, sənədlərini topla, nazirin adına ərizə yaz, mən də nazirliyə tapşırım, səni işə götürsünlər. Razılaşdım və sənədlərimi toplayıb təqdim etdim. 20 günün içərisində deyilən idarəyə sahə inspektoru vəzifəsinə təyin olundum. Bir ay da keçdi, Rasim Abdullayevdən pulumu istəməyə başladım. Çünki bizim aramızda belə bir danışıq olmamışdı ki, o, məni pulla işə düzəldəcək. Dedi, nə pul, mənə verdiyin pulla səni işə düzəltmişəm. Bundan sonra aramızda mübahisə yarandı və uzun müddət mən ondan pulumu geri ala bilmədim».

**«AZ QALA ÖZÜMÜ BORCLU ÇIXARIRLAR»**

Mahmud Tağıyev deyir ki, bir müddət sonra öz ərizəsi ilə işdən çıxıb. Uzun illər Rasim Abdullayev pulunu qaytarmadığına görə, o da məcbur olub Daxili İşlər Nazirliyinə rəsmi şikayət edib. Ancaq şikayəti araşdırılmır, əksinə, şikayət etdiyinə görə təhqiqatçılar az qala onun özünü borclu çıxarırlar.

Borc pulun verilməsində iştirakçı kimi adıçəkilən BŞBPİ-nin keçmiş şöbə rəisi Cavad Nuriyev də faktı təsdiqlədi: «Həmin vaxt Rasim ev tikdirirdi, Mahmuddan borc istədi, Mahmud da verdi. Bu yaxınlarda mənə Daxili İşlər Nazirliyindən də zəng etmişdilər, deyirdilər ki, Mahmud bu məsələ ilə bağlı şikayət edib, təhqiqatçılar araşdırırlar. Mən də hər şeyi olduğu kimi dedim. Bildirdilər ki, özümüz çağırıb sizdən rəsmi izahat da alacağıq. Ancaq hələ də çağırmayıblar».

**BORCUNU TƏLƏB EDƏNİ MƏHKƏMƏYƏ VERİBLƏR**

DİN mətbuat xidmətinin şöbə rəisi Orxan Mansurzadə «Qaynar Xətt»ə bildirib ki, BŞBPİ Mahmud Tağıyevi məhkəməyə verib. Onun dediyinə görə, Mahmud Tağıyevin 2002-ci ildə BŞBPİ-nin Kadrlar İdarəsinin şöbə rəisi Rasim Abdullayevə pul verməsi, sonradan guya Rasim Abdullayevin həmin pulla onu sahə inspektoru təyin etdirməsi barədə deyilənlər BŞBPİ-də araşdırılıb və təsdiqini tapmayıb. Hazırda BŞBPİ-də Kadrlar İdarəsinin şöbə rəisi işləyən Rasim Abdullayev şərəf və ləyaqətinin alçaldılması iddiası ilə Mahmud Tağıyevi məhkəməyə verib.

***Esmira Cavadova***

# Keçmiş çilingər qaz idarəsinin rəisini məhkəməyə verib

**«RƏİS ATAMI QAZPULU YIĞMAĞA MƏCBUR EDİRDİ»**

Astara rayon sakini, Astara Rayon Qaz İstismar İdarəsinin keçmiş çilingəri Ələkbər Nəzirov qanunsuz işdən çıxarılmasından şikayətçidir. Səhhətində problem olması səbəbindən efir üçün danışa bilmədiyinə görə, onun problemini AzadlıqRadiosunun «Qaynar Xətt»inə oğlu, həmin idarədə gözətçi işləyən Vahid Nəzirov çatdırır. Deməsinə görə, atası Ələkbər Nəzirov Astara Rayon Qaz İstismar İdarəsində qaz avadanlıqlarının təmiri üzrə 39 il çilingər işləyib. Ötən ilin sonunda idarəyə rəis təyin olunmuş Zahir Rzayev bu ilin martında Ələkbər Nəzirovu işdən çıxarıb.

**RƏİS BARƏDƏ 50 VƏRƏQLİK FAKT?**

Vahid Nəzirov: «Yeni rəis gəldiyi gündən köhnə işçilərlə yola getmir. İclas keçirib atama yersiz töhmətlər verdi. Atam fevralın əvvəlində səhhəti ilə əlaqədar məzuniyyətə çıxdı. Fevralın 29-da işə qayıtdı. İki gün işə çıxandan sonra rəis dedi ki, mən səni işdən çıxartmışam, daha idarəyə gəlməyinə ehtiyac yoxdur. Qazpulu yığmaq mənim atamın işi deyil, rəis isə atamı məcbur edirdi ki, qapı-qapı düşüb qazpulu yığsın. Atam da onun dediyini etmirdi».

Vahid Nəzirov deyir ki, atasının qanunsuz işdən çıxarılması ilə əlaqədar idarə rəisini məhkəməyə veriblər: «Məhkəməyə rəisin qanunsuz hərəkətlərinə dair 50 vərəqdən ibarət faktlar da təqdim etmişik».

**«SAYĞACLARA MÜDAXİLƏ EDİRDİ»**

Astara Rayon Qaz İstismar İdarəsinin rəisi Zahir Rzayev keçmiş çilingərin iddialarını qəbul etmir: «Veriblər məhkəməyə, biz də öz tərəfimizdən lazım olan sənədləri məhkəməyə göndərmişik. Məhkəmə özü araşdıracaq. Ələkbər Nəzirovun işdən çıxarılmasına səbəb olan, sadəcə, bir-iki faktı deməklə kifayətlənirəm. Mən idarəyə rəis təyin olunandan 3-4 gün sonra abonentə zəng etməkdən çaşıb mənə zəng etmişdi, deyirdi kənar xətti ordan yığışdır, təzə rəis gəlib, hər şeyi bir-bir özü yoxlayır. Sayğacların üstündən dövlət möhürünü qırırdı, sayğaclara müdaxilə edirdi. Özündə plombvuran var idi, sonra da həmin plombvuranla plomb qoyurdu. Belə faktlar çoxdur. Dəfələrlə xəbərdar olunub, töhmət verilib, xeyri olmayıb».



Sayğac

Vahid Nəzirov məhkəmədə işə bərpa olunması ilə bağlı iddiasına nail olacaq ya yox, bunu məhkəmənin sonunda biləcəyik.

***Esmira Cavadova***

# Бжезинский: «Нефтепровод BTC под угрозой, если Израиль атакует Иран»


Збигнев Бжезинский

**Збигнев Бжезинский , бывший советник по национальной безопасности во время президента США Джимми Картера, считает возможной "вторую войну России против Грузии", в случае атаки Запада на Иран, передает Turan.**

Выступая 11 апреля на конференции "Global Security Forum 2012", Бжезинский отметил, что «национальные интересы США на Южном Кавказе, в том числе нефтепровод BTC (Бакы-Тбилиси-Джейхан – прим.ред.), подвергнутся угрозе, если Израиль атакует Иран».

«В этом случае, есть возможность конфликта также и между Азербайджаном и Ираном. Россия может воспользоваться ситуацией и начать новую войну против Грузии», - сказал он.

Заявление Бжезинского прозвучало спустя пару дней после того, как Фонд Джеймстаун опубликовал аналитический документ о возможном плане действий России против Грузии.

Согласно документу, «Россия продолжает наращивать свое военное присутствие на оккупированных территориях Грузии. При этом, расчет делается на то, что военные действия против Ирана начнутся летом 2012 года. Учитывая, что Израиль не обладает достаточными силами для победы над Ираном, неизбежно участие в войне и США».

# Азербайджанские евреи-московские миллиардеры

**«Негласные короли недвижимости России - выходцы из маленького еврейского поселения в Азербайджане», - пишет Геральд Хосп в швейцарской либеральной газете Neue Zuercher Zeitung.**

В азербайджанской диаспоре в Москве есть и немало миллионеров и миллиардеров из Красной Слободы - небольшого поселка близ старинного города Губа, где живут «горские евреи». Так на Кавказе называют местное еврейское население, издревле живущее на территории Дагестана и в Азербайджане. Акифу Гилалову, с которым Хосп встретился в дорогом московском ресторане, чтобы поговрить о бизнесе, 34 года. «Интересы группы компаний «ЗАР», принадлежащей Гилалову, сосредоточены в основном в области недвижимости. Он также владеет торговыми центрами и занимается куплей-продажей редкоземельных металлов», - отмечает здание. Кроме бизнеса, Акиф Гилалов, который родился в Красной Слободе, и отец которого возглавлял Счетную палату во времена СССР, также уделяет время Всемирному конгрессу горских евреев - общественной организации, которой руководит.

Население Красной Слободы со временем сокращается и теперь достигло 3 000 человек. Это достаточно закрытая от внешнего мира община, а новые поколения предпочитают уезжать на заработки в Россию, Израиль, Европу и США, рассказывает Геральд Хосп.

«Однако этот небольшой азербайджанский городок, похоже, стал кузницей предпринимателей: российское издание журнала Forbes окрестило недавно Зараха Илиева и Года Нисанова королями недвижимости в России. Их компании зарабатывают в год на аренде до 780 млн долларов США. Оба предприниматели выросли в Красной Слободе. В Москве им принадлежат роскошная гостиница «Украина» и гигантский торговый центр «Европейский», - говорится в статье.

Тельман Исмаилов хоть и не родился в Губе, однако также является азербайджанским горским евреем. Он не менее богат, чем вышеназванные и оказывает материальную поддержку Красной Слободе, пишет корреспондент.

«Яков Якубов, занимающий 21-ю позицию в списке Forbes среди самых богатых предпринимателей в сфере недвижимости в России, также является членом диаспоры горских евреев в Москве. Судьбы этих бизнесменов тесно переплетены», - отмечает Neue Zuercher Zeitung. «Богатство Исмаилова, Илиева, Нисанова, Гилалова и их соотечественников - это крупные рынки, которые стали один за другим возникать в Москве после развала СССР».

Одним из самых известных стал Черкизовский рынок. Это самая большая торговая площадка в Восточной Европе, которую можно назвать «город в городе», пишет издание. Владельцем рынка, который по официальной версии был закрыт из-за нарушений санитарно-эпидемиологических правил, был Тельман Исмаилов. Бизнес-интересы имел здесь и Илиев. Акиф Гигалов говорит, что его отец тоже поддерживал развитие Черкизовского рынка.

Закрытый мир «этнического бизнеса» и его стремительный рост в «лихие» 1990 годы стали почвой для различных слухов о сомнительных методах накопления капитала, пишет автор. «Акиф Гилалов не без основания окружил себя телохранителями: его старший брат Заур был застрелен в Москве в 2004 году, отец также стал жертвой покушения. Сегодня Гилалов причисляет себя к поколению с новым менталитетом. Он имеет в виду переход к цивилизованным методам, хоть напрямую об этом не говорит», - отмечает издание.

В статье говорится, что секрет успеха в предпринимательстве и торговле сам Акиф Гилалов связывает с такими качествами горских евреев, как напористость, работоспособность и верность принципам. Нельзя не учитывать и такой фактор, как взаимное доверие членов маленькой и закрытой общины.

«Знакомство Исмаилова и других выходцев из советской эпохи с экс-мэром Москвы Юрием Лужковым тоже было неплохим катализатором и залогом успеха», - пишет Геральд Хосп.

***По материалам InoPressa***

# Büdcədən maliyyələşmə partiyalara nə verəcək, nə alacaq?



Rəşid Şərifin karikaturası.

Siyasi partiyalar məsələsi yeni biçimdə gündəliyə gəlib. İndi hamı partiyalar haqqında qəbul olunacaq növbəti qanundan danışır. Əslində kiçik bir detalı çıxsaq, bu qanun ölkənin hüquq mühitinə heç bir qeyri-adi yenilik gətirmir. Kiçik detal isə partiyaların dövlət tərəfindən maliyyələşməsi məsələsidir. Nə səbəbdən biz onu «kiçik detal» adlandırdıq? Sovetlər müharibə veteranları haqda onların çoxu dünyasını dəyişəndən sonra düşünməyə başladı. İndi o münasibət özünü müasir Azərbaycandakı partiyalara tətbiqən büruzə verir. 19 il ərzində davam edən siyasət nəticəsində partiyalar elə vəziyyətə düşüb ki, özlərini yalnız ən fədakar insanların hesabına qoruyub saxlaya biliblər. O partiyalar ki, bu maliyyəyə daha iddialı olmalı idilər, onlar siyasət səhnəsinin aciz tamaşaçılarına çevriliblər, Milli Məclisdə təmsil olunmayıblar, bəzisinin hətta özünün mənzil qərargahı da yoxdur.

Yeni qanun onlara nə verəcək? O partiyalar bundan bir «oksigen balonu» kimi istifadə edə biləcəklərmi? Çox güman ki, bu, olmayacaq. Bəlkə də əksinə, yeni «başağrısı», yeni problemlər çıxacaq ortaya, məsələn, partiyalar yenidən qeydiyyatdan keçməli olacaqlar.

Bəs, onda nəyə ümid edilir? Açığını desək, əsas müxalifət partiyaları heç bir şeyə ümid etmir, onları hətta yeni qanunla bağlı müzakirələrə də çağırmırlar və bu haqda nə düşündüklərini soruşmurlar. Lakin onlar istəməsə də qanun qəbul ediləcək.

Burada bir çıxış yolu qalır – heç olmasa, beynəlxalq təşkilat və institutlarla, xüsusən də Venesiya Komissiyası ilə dolayı təmaslarda bir iş görməyə cəhd etmək, qanunu azacıq da olsa bütün partiyaların maraqları istiqamətinə yönəltmək. Amma bu mərhələ də artıq yekunlaşmaq üzrədir və qanunun müzakirəsi Milli Məclisin komitələrində aparılır. Lakin cəhd həmişə cəhddir və elə etmək lazımdır ki, heç nə alınmasa da «mən buna cəhd etdim – deyə biləsən.

**TƏCRÜBƏ NƏ GÖSTƏRİR?**

QHT-lərə dövlət dəstəyi proqramı qəbul ediləndən sonra ölkədə onların bu dəstəkdən asılı olması tendensiyası üzə çıxdı. Və qeyri- hökumət təşkilatları fəaliyyətlərini əvvəlki illərlə müqayisədə xeyli zəiflətdilər. Partiyaları belə bir aqibət gözləmir, hər halda, biz buna ümid edirik. Çünki ölkənin bütün siyasi partiyaları iki kəskin qrupa və ya cinaha bölünüblər – hakimiyyətə sığınanlar və ona qarşı kəskin müxalifət mövqeyi tutanlar. Bir daha qeyd edirik ki, biz güman etmirik ki, dövlət maliyyələşməsi bu mənzərəni hiss olunacaq qədər dəyişə bilsin. Bəs, onda qanun hansı gözləntilər vəd edir? Maliyyənin böyük hissəsi hakim partiyaya qismət olacaq və qəpik-quruş parlamentdə bir-iki mandatla təmsil olunan partiyaların payına düşəcək. Deyirlər ki, bu qanunla şəffaflıq yaranacaq. Amma məsələ bundadır ki, cəmiyyəti məmur və dövlət işçilərinin gəlirləri daha çox düşündürür, nəinki bir-iki müxalifət partiyası və onların maliyyə vəziyyəti.

Partiyalara tətbiqən dəbdə olan «xaricdən maliyyə almaq» ittihamı da heç bir məntiqlə uzlaşmır. Əgər belə dəstək və maliyyə olsaydı indi hakimiyyət tərəfə transfer edənlərin sayı bir qədər azalardı. Bir sirr deyil ki, son illərdə bir çox müxalifətçinin hakimiyyət tərəfə keçməsinin bir səbəbi müxalifətçilik dövrünün uzanması və perspektivsizlikdirsə, o biri səbəbi məhz müxalifət düşərgəsində hökm sürən maliyyə çətinlikləridir.

Bir məsələni də qeyd etmək istəyirəm. Qərb dünyasında əməkdaş partiyaları və siyasi təşkilatları maliyyələşdirmək ənənəsi yoxdur. Hətta nüfuzlu təşkilata üzv olmaq maliyyə dəstəyi almaq demək deyil. Azərbaycanda da beynəlxalq partiya ittifaqlarının üzvü olan partiyalar var. Bu partiyalar maliyyə imkanları olmadığından hətta həmin ittifaqların xaricdə keçirilən toplantılarında iştirak edə bilmirlər.

**ÜZVLÜK HAQLARI DA SAYILACAQMI?**

Bu ehtimalı da istisna etmək olmaz. Ona görə ki, yeni qanun üzvlük haqları ödəyən insanlar haqqında da məlumatların daha da şəffaflaşmasını nəzərdə tutur. Azərbaycanda insanlar həmişə belə informasiyadan ehtiyat edir, ona görə ki, bu cür məlumatlar onlara qarşı siyasi təqiblərə səbəb ola bilər. İndi bəzi insanlar (tutaq ki, büdcə təşkilatlarında işləyənlər) öz vəziyyətlərindən ehtiyat etdikləri üçün partiyaların həyatında yaxından iştirak etmirlər, onlar, sadəcə, üzvlük haqqı ödəyirlər. Təminat varmı ki, belə insanların partiyalara üzvlük haqqı ödəməsi bəlli olandan sonra onlar öz həyatlarında problemlər və çətinliklərlə üzləşməyəcəklər?

Nəzərə alsaq ki, insanlar öz mülklərini də siyasi partiyalara qərargah kimi icarəyə verməyə ehtiyat edir, belə təminatın olmadığına əmin ola bilərik. Bu cür hallar haqda düşünəndə qəribə bir sual yaranır: bu ölkədə insanların öz vəsaitləri və mülkləri üzərində bir sərəncam hüququ varmı? Belə hüquq olsaydı, siyasi partiyalar maliyyə problemləri və çətinlikləri yaşamazdılar. Partiyalara maliyyə vəsaiti ən çox seçkilər zamanı lazım olur. Ölkədə seçki fondlarının fəaliyyətinə təkan verilsəydi, heç dövlət maliyyələşməsinə ehtiyac qalmazdı.

Amma reallıq başqa şey göstərir. Yazılı mətbuat reklam bazarından məhrum ediləndən sonra ona dövlət dəstəyi və «qayğısı» göstərmək məsələsi meydana çıxdı. İndi partiyalar da daha böyük və daha sərfəli maliyyə qaynağından–təəssübkeşlərinin yardımından tam məhrum olandan sonra onlara dövlətin maliyyə dəstəyi məsələsi gündəmə gəldi. Necə deyərlər, uğur olsun!

***Hüseynbala Səlimov,***
***müstəqil analitik***

# «Rifah indeksi»ndə azərbaycanlıların 9 faizi həyatından razılıq edir

Dünyada hər 4 adamdan 1-i özünü uğurlu sayır. Bu, ABŞ-da yerləşən «Gallup» mərkəzinin apardığı sorğu nəticələri əsasında verdiyi məlumatdır. «Gallup» aprelin 11-də keçən il 146 ölkədə apardığı sorğunun nəticələrini elan edib. Qurum bildirir ki, özünü uğurlu hesab edənlər əsasən Danimarkadadırlar. Bu ölkədə rəyi soruşulanların 74 faizi durumundan tam razılıq edib. Ən çox narazılıq edən isə Kambocada olub. Bu ölkədə sorğuda iştirak edənlərin cəmi 2 faizi vəziyyətindən tam razı olduğunu deyib.

| Ölkələr | Razılıq səviyyəsi | | |
|---|---|---|---|
| | Razıyam | Qismən razıyam | Çox çətinlik çəkirəm |
| Rusiya | 22% | 58% | 19% |
| Türkiyə | 24% | 56% | 20% |
| Azərbaycan | 9% | 78% | 12% |
| İran | 20% | 55% | 26% |
| Ermənistan | 8% | 57% | 35% |
| Türkmənistan | 32% | 67% | 2% |
| Qazaxıstan | 31% | 58% | 11% |

«Gallup» sorğusunu Azərbaycanda da keçirib və burada rəyi soruşulanların yalnız 9 faizi durumundan tam razılıq edib. 78 faizi isə həyatından qismən razılıq edərək çətinliklərin olduğunu deyib. 12 faizi isə, ümumiyyətlə, bataqlığa düşdüyünü bildirib.

Sorğu keçirilən 146 ölkədən 28-də insanlar daha çox narazıdırlar. Əsasən Afrika qitəsindən olan bu ölkələrdə əhalinin 90 faizdən çoxu pis vəziyyətdə yaşadığını deyib. Sorğuya görə, cəmi 17 ölkədə insanların 50 faizdən çoxu özlərini uğurlu hesab edirlər.

2011-ci ildə rifah səviyyəsindən ən çox razı olanların yaşadıqları ölkələr

| Ölkələr | Razılıq səviyyəsi |
|---|---|
| Danimarka | 74% |
| Kanada | 66% |
| Niderland | 66% |
| İsrail | 65% |
| İsveç | 65% |
| Avstraliya | 64% |
| Finlandiya | 64% |
| Yeni Zelandiya | 60% |
| Avstriya | 59% |
| Braziliya | 59% |
| Kosta-Rika | 58% |
| Birləşmiş Ərəb Əmirlikləri | 58% |
| ABŞ | 56% |
| Panama | 55% |
| İrlandiya | 54% |
| Argentina | 53% |
| Oman | 51% |

***Natiq Zeynalov***

# Gümrüdə Azərbaycan Filmləri Festivalına imkan verilmədi



Rejissor Georgi Vanyan

Aprelin 12-də Ermənistanın Gümrü şəhərində qısametrajlı Azərbaycan filmlərinin (1 sənədli və 3 bədii) nümayişinə maneçilik törədilib. Ermənistan mediasının yazdığına görə, filmlərin nümayişinə başlanmazdan əvvəl bir qrup şəxs festivalın keçiriləcəyi «Asparez» klubunu mühasirəyə alıb, tədbirin təşkilatçısı Georgi Vanyanı ora buraxmayıb. Buna qədər isə etirazçılar klub binasına daxil olaraq nümayişin dayandırılmasını tələb ediblər. Bundan sonra Vanyan filmlərin nümayiş olunmayacağını elan etmək məcburiyyətində qalıb və Gümrünü tərk edib. Aprelin 13-də isə Qafqaz Sülhməramlı Təşəbbüslər Mərkəzi baş verənlərlə əlaqədar bəyanat yayıb.

**«STOP» FESTİVALI ŞOSE YOLUNUN ÜSTÜNDƏ**

Bəyanatda bildirilir ki, Ermənistanda Azərbaycan filmləri festivalı baş tutub. Növbəti nümayiş aprelin 17-də saat 16:00-da Helsinki Assambleyasının Vanadzor ofisində olacaq. Belə ki, «Asparez» klubunu tərk edən festival təşkilatçıları Gümrü yaxınlığındakı şose yolunun üstündə «STOP» festivalı keçiriblər. 26 nəfər festivalın proqramına baxıb, 24 nəfər səsvermədə iştirak edib. Onlar «Tamaşaçı rəğbəti» mükafatını müəyyən edəcəklər. Politoloq Zərdüşt Əlizadə isə Azərbaycanda erməni filmlərinin festivalını keçirməyə hazır olduğunu bildirib. Deyib ki, əsl incəsənət humanizmə, xalqların yaxınlaşmasına xidmət etməlidir.

**«ERMƏNİSTANLA BİRGƏ TƏDBİRLƏR KEÇİRMƏK MƏQSƏDƏUYĞUN DEYİL»**

Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin Kinematoqrafiya Şöbəsinin sektor müdiri Yusif Şeyxov deyir ki, Gümrü festivalında hansı Azərbaycan filmlərinin göstəriləcəyi barədə onların məlumatı olmayıb. Şeyxov deyir ki, dövlət və qeyri-dövlət film studiyaları arasında sorğu keçiriblər. Həmin studiyalar festivala müraciət etmədiklərini bildiriblər: «Festivalın baş tutmasını proqnozlaşdırmaq mümkün idi. Fikrimcə, Ermənistan cəmiyyəti belə təşəbbüslərin dəstəklənməsinə hazır deyil. Əslində Gümrüdə baş verənlər də bunu təsdiqlədi».

«Bəs, Azərbaycan necə, Bakıda erməni film festivalı keçirilməsi təşəbbüsünü dəstəkləyərdimi» sualına isə Yusif Şeyxov belə cavab verdi: «Biz Ermənistan tərəfi ilə birgə tədbirlərin keçirilməsini məqsədəuyğun saymırıq. İndiki siyasi vəziyyətdə biz bunun əleyhinəyik».

**İNAMSIZLIQ İNAMA YÖNƏLƏ BİLƏR**

Analitik Rauf Rəcəbov isə deyir ki, Azərbaycanla Ermənistan arasında belə təşəbbüslər olmalıdır: «Belə layihələr, proqramlar inamsızlığı inama doğru yönəldə bilər. Bu layihələr çox vacib və lazımlıdır. Həm də bu tədbirləri iki tərəf də keçirməlidir. Hökumət isə bu tədbirlərin baş tutmasına dəstək olmalıdır».

Builki festival ABŞ və Böyük Britaniya səfirliklərinin qrantı hesabına təşkil olunur. Azərbaycan filmləri erməni dilinə tərcümə olunub. Məqsəd qarşılıqlı anlayış formalaşdırmaq və iki xalqın barışdırılması üçün yollar axtarmaqdır. Rejissor Georgi Vanyanın rəhbərlik etdiyi Qafqaz Sülh Təşəbbüsləri Mərkəzi 2010-cu ilin noyabrında da Yerevanda belə bir tədbir keçirmək istəmişdi. Həmin vaxt təşkilatçılara yer verilmədiyindən festival baş tutmamışdı.

***Kəbiran Dilavərli***

# MTN-in saxladığı şəxslərin ailə üzvləri nə deyir?


Milli Təhlükəsizlik Nazirliyi

**Milli Təhlükəsizlik Nazirliyi (MTN) 2 gün ard-arda silah-sursat saxladıqları bildirilən şəxsləri ifşa etdiyini açıqlayıb. Aprelin 13-də MTN-in Zaqatalada həyata keçirdiyi xüsusi əməliyyat nəticəsində Mahmud Lələyev və Teymur Qaracayev tutulub. Onların evlərindən və pay torpaqlarının ərazisindən silah-sursat, partlayıcı qurğuların aşkar edilərək götürüldüyü bildirilir.**

Aprelin 12-də isə nazirlik məlumat yayıb ki, İrandan qaçaqmalçılıq yolu ilə Azərbaycana odlu silah, döyüş sursatı, habelə narkotik vasitələrin keçirilməsində təqsirli bilinən bir qrup şəxsi saxlayıb. Məlumatda İran vətəndaşları - Nasir Əbdi,Əli Dəlir, Əli Rəhmani, Azərbaycan vətəndaşları - Qabil Xubaliyev, Ruslan Məmmədov, Arzuman Mürşüdov, Niyaməddin Lalayev, Vadim Qəniyev və qeyrilərinin adları çəkilir.

**«ÖMÜR BOYU ONDA SİLAH OLMAYIB»**

AzadlıqRadiosu adları keçən şəxslərdən bir neçəsinin ailələri ilə əlaqə saxlayıb. İrandan Azərbaycana odlu silah, döyüş sursatı, habelə narkotik vasitələrin keçirilməsində təqsirli bilinənlərdən Arzuman Mürşüdovun atası Məmmədəli Mürşüdov deyir ki, oğlu kiminsə güdazına gedib: «Oğlumun üstündə qəti silah olmayıb, silahla maraqlanmaq xasiyyəti olmayıb. Ömür boyu onda silah olmayıb. Ova gedə, bir dənə dovşan tuta... belə söhbət olmayıb».

Masallının Güllütəpə kəndində yaşayan Məmmədəli Mürşüdov danışır ki, kənddə işsizlik olduğuna görə oğlu Arzumanı Rusiyaya yollayıbmış. Amma qısa müddət sonra geri qayıdıb. Məmmədəli Mürşüdov bildirir, 1985-ci ildə oğlu hərbi xidmətdə qəzaya düşüb, aldığı travma onda psixi pozğunluğa səbəb olub. O, oğlunun saxlanması ilə nəticələnən hadisəni belə nəql edir:

**«GÜNAHI ODUR Kİ, SADƏLÖVHDÜR»**

«Balaca nəvəm evdə idi, nahar edirdi. Evdə odunumuz yox idi. Odun gətirməyə gedəcəkdi. Biri zəng elədi, dedi «Arzuman, mənim filan yerdən qonaqlarım gəlib, çıx onları evə qəbul elə». O da gedib odun gətirməyə, günortadan sonra o qonaqlara da rast gəlib. Bu işin sənətkarı idisə, niyə saat 6 radələrində, gündüz hava işıqlı ola-ola gətirirdi? İki dənə toyuq kəsib, bişirib


Arxiv foto

onlara. Gecə olub, qonaqlar deyib «bizi aparacaqsan», oğlum da saxlayıb ki, qalın. Deyiblər, «yox, biz filankəsə vəd vermişik». Bu, nə siyasət olub, nə fırıldaq olub, bilmirəm. Onun günahı odur ki, sadəlövhdür».

Məmmədəli Mürşüdov deyir ki, İran vətəndaşları - Nasir Əbdi, Əli Dəlir, Əli Rəhmanini heç vaxt tanımayıblar. Həmin şəxslər Arzuman Mürşüdovun evində əyləşəndə, öz əşyalarını həyətdəki toyuq hinində yerləşdiriblərmiş. Atası deyir ki, oğlunun evindən hər hansı silah aşkarlanmayıb, əməliyyatçılar iranlılara məxsus silahları toyuq hinindən götürüblər.

Arzuman Mürşüdov evlidir, 7 uşaq atasıdır. İşsizdir, ailəsini isə atası və Rusiyada işləyən qardaşları dolandırır. Atası deyir ki, o özü və bütün oğulları hakim Yeni Azərbaycan Partiyasının üzvləridirlər.

**«SİLAH NƏ GƏZİR ONDA...»**

Eyni cinayətdə təqsirli bilinib həbs edilən Vadim Qəniyevin atası Abdulcabbar Qəniyev də oğlunun adının silah işində keçməsinə təəccübləndiyini deyir: «Eşitdiyimə görə, onun üstündə heç nə tapılmayıb. Silah nə gəzir onda... Özüm dəqiq deyə bilmirəm heç nə, çünki oğlumu görməmişəm. Onu şübhəli şəxs qismində saxlayıblar. Qonaq evində olub o. Ləlәyevin yanına qonaq gedibmiş. Orda tutublar. Mən dəqiq bilirəm ki, başqa əlaqəsi ola bilməz».

Xaçmaz rayonunun Yalama kəndində yaşayan Abdulcabbar Qəniyev deyir ki, yaşadıqları yerdə iş yox imiş. 32 yaşlı Vadim atasına evin tikintisində kömək edirmiş. MTN-in Zaqatalada həyata keçirdiyi xüsusi əməliyyatda saxlanılan Teymur Qaracayevin də atası oğlunun yanlış ittiham olunduğunu iddia edir:

**«GÜNDƏ 5 NAMAZINI QILIB»**

- Məlumatı var idi oğlumun, onların dostu olub, birlikdə işləyiblər, suvaq vurublar. Amma özü ömür billah belə iş görən adam deyil. Gündə 5 namazını qılıb, işinə gedib uşaqlarına çörək qazanan adamdır.

*- Sizin evinizdə, oğlunuzun evində axtarış aparıblar?*

- Gəliblər, baxıblar. Düzdür, oğlumun onlardan xəbəri var imiş, vaxtında bu da deməyib. Onu da qorxudublar ki, ailəni belə edərəm, elə edərəm.

*- Oğlunuzu kim qorxudub?*

- Həmin o adamlar. Tutulanlar. Ailəsinə ziyan verəcəklərindən qorxub, sıxılıb qalıb. Axırda da belə olub. Çıxmayıb onun evindən heç nə. Özləri də etiraf etdilər ki, sizdə heç bir şey yoxdur.

*- Sizin oğlunuzun hansısa qruplarla görüşləri olubmu?*

- Yox, yox. Bu, bizim nəslin işi deyil.

Təqsirləndirilən şəxslərin ailələrinin açıqladıqlarına Milli Təhlükəsizlik Nazirliyindən cavab öyrənə bilmədik.

***Durna Səfərli***



Günün ən vacib hadisələri **AzadlıqRadiosunun** müxbirlərinin reportajlarında. Aktual müsahibələr və ekspertlərin analizləri. **Hər gün saat 20.05-dən 20.35-dək.**

# Tələbə sualı: «Özünə iş tapmısan?»



Arxiv foto

**Təxminən bir aydan sonra tələbələrin bir hissəsi arxada qoyduğu dərs ilinin yorğunluğunu çıxarmaq üçün istirahətə gedir. Bir hissəsi isə qarşıdakı bir neçə aylıq boş vaxtından istifadə edib iş axtarışına başlayır. Onlardan biri Fərid Əhmədli deyir ki, dizaynerliyi yaxşı bacarır. Ona görə də boş qalmaqdansa, nəsə bir işin qulpundan tutmaq qərarına gəlib: «Mən kompyuter üzrə işləyə bilərəm, özüm də dizaynerəm».**

Fərid deyir ki, iş üçün bir həftə əvvəl müraciət edib. Bir həftədir ki, qulağı səsdədir.

**SATICI VƏ BUKLET PAYLAYAN**

Azərbaycanda tələbələrə daha çox ticarət sektorunda iş təklif olunur. Elə iş yerləri elanlarında da qarşısında «Tələbə üçün» işarələnən elanlar daha çox satıcılıqla bağlıdır. Bu işlərin maaşı adətən 200 manatdan artıq olmur. Tələbə işi elanlarında başqa bir tələbat isə buklet paylayan işinədir. Elanda elə belə də yazılır – «Buklet paylayan». Bu vakansiya əsasən şəhərin əhali çox olan küçələrində müxtəlif elanlar paylamağı nəzərdə tutur.

Bakıda tələbələrə iş yerləri təklif edən bir neçə vasitəçi şirkət də fəaliyyət göstərir. Belə şirkətlərdən biri – «İnam» İnsan Resursları və Təlim Mərkəzinin təsisçisi Vüsal Nadiroğlu deyir ki, tələbələr üçün təklif olunan işlər əsasən yarım iş günü – adətən səhər 9-dan 1-ə qədər, ya da 2-dən 6-ya qədər olur. Əməkhaqları isə 150-250 manat arasındadır. Vüsal Nadiroğlu deyir ki, müraciətlər çoxdur:

**İŞ AXTARANLARIN ÇOXU OĞLANLARDIR**

«Tələbələrin müraciəti iş təklif edən şirkətlərin tələblərindən daha çoxdur. Bu işlər əsasən yarımştat satıcı, veb proqramlaşdırma, yaxud informasiya texnologiyaları sahələrində olur. Tələbədir, bu sahədə oxuyur, istəyir ki, tələbəlik vaxtında təcrübə qazansın. İş axtaranların əksəriyyəti isə oğlanlardır. Qızlar da olur, ancaq oğlanlar daha çoxdur». İşə düzələn tələbələr isə deyirlər ki, adətən onlara azmaaşlı işlər təklif olunur. Bir neçə aydır işləyən tələbə Ceyhun Əsgərli deyir ki, iş tapmaq ona çətin olmayıb. Çünki təklif olunan maaşlar azdır. Sahibkar da qarşısındakının tələbə olmasından sui-istifadə edir: «Mənim üçün iş tapmaq asan oldu. İşləmək isə çətindir. Həm dərs oxumaq, həm də işləmək asan deyil. Çalışıram hər ikisini çatdırım. Saat 2-yə qədər dərsdir, 2-dən sonra iş başlayır. Ailə vəziyyətimə görə işləmək vacib idi. 230 manat maaş alıram. Azdır, ancaq olmamaqdansa, bu da yaxşıdır».

**GÖRƏNDƏ Kİ, TƏLƏBƏDİR...**


Arxiv foto

Tələbələrin işə düzəlməsinə vasitəçilik edən Vüsal Nadiroğlu da tələbələrə ödənən maaşın az olması ilə razılaşır: «Sahibkarda ilkin siqnal var ki, bu, tələbədir. Ancaq tələbə özünü təsdiqləyəndən sonra bu situasiyanı dəyişmək öz əlində olur». Bakıdakı tələbələr satıcılıqdan başqa, daha çox kompyuter işində, sürücü, gözətçi işləyirlər. Yaradıcı tələbələr isə əməklərini satmaqla pul qazanmaq haqqında düşünürlər. Onlardan biri, tələbə-rəssam Lalə Əmirlidir. Lalə deyir ki, ilk sifarişi 1 il əvvəl, 3-cü kursda oxuyanda alıb. Aldığı əməkhaqqı çox olmasa da, onda maddi stimul yaradır.

**İŞSİZ TƏLƏBƏLƏR?**

İşləmək istəyən, ancaq iş tapa bilməyən tələbələr də çoxdur. 4-cü kurs tələbəsi Valid Əliyev kimi: «İş yoxdur. Neçə dəfə maraqlanmışam, ancaq hələ tapa bilmirəm».

Azərbaycanda hökumətin tələbələri işlə təmin etmək öhdəliyi yoxdur. Bəzi özəl təşkilatlar isə ayrı-ayrı universitetlərə təcrübə proqramları təklif edirlər.

**KOMPLEKSSİZ GƏNCLƏRƏ EHTİYAC VAR**

Tələbələrin mövsümi, ya da daimi iş üçün üz tutduğu yerlərdən biri də yerli məşğulluq idarələridir. Bakıda Bakı Şəhər Məşğulluq İdarəsinə tabe olan 11 rayon üzrə məşğulluq xidmətləri var. Bakı şəhər Məşğulluq İdarəsinin direktoru Şəfa Əliyev deyir ki, onlar keçən ildən başlayaraq ilboyu işləmək istəyənlər üçün imkanlar yaradırlar. Təklif olunan əlavə iş yerləri isə əsasən xidmət sahəsindədir: «Bizim bütün məşğulluq mərkəzlərində vakansiyalar toplanır. Hər hansı bir gənc müraciət etdikdə, onunla fərdi iş aparılır. Bizdə başqa bir tədbirlər sistemi var ki, bu da ixtisaslaşdırılmış mini əmək yarmarkalarıdır. Biz bu işləri ilboyu davam etdiririk. Yay vaxtı isə bu iş xüsusi qurulur. Tələbələrə gəldikdə isə, bütün rayonlar üzrə əlavə yeni vakansiyalar toplamağa başlamışıq. İndi Bakıda keçirilən mötəbər tədbirlərin sayı da çoxalıb. Bununla əlaqədar olaraq əlavə xidmət sektorlarında gənclərə, xüsusilə kompleksiz gənclərə daha çox ehtiyac yaranır».

Bakı Şəhər Məşğulluq İdarəsi peşəsi olmayan gənclərə pulsuz olaraq 100-ə yaxın peşə öyrətdiyini də bildirir.

***Kəbiran Dilavərli***





Ən aktual, ən qaynar müzakirələr həftənin hər iş günü AzadlıqRadiosunun efirində. **Saat 17-dən 19-dək**. **AzadliqRadiosu.az** saytından verilişə qulaq asa və ya baxa bilərsiniz. Geciksəniz, AzadliqRadiosu.az saytında səs arxivindən verilişlərə sonradan da qulaq asa bilərsiniz.

**Veriliş zamanı suallarınızı verin:**
**SMS:** (+994 50 744 10 17)
**Telefon:** 436 – 77 - 41
**Elektron ünvan:**
efir@azadliqradiosu.az

# Füzulinin Kərbəladakı məzarı hovuzun altında qalıb



Zakir Sadatlı

**«Məhəmməd Füzulinin İmam Hüseynin ayağı altında dəfn olunması fikri yanlışdır». Bu sözləri AzadlıqRadiosunun «İz» proqramına yazıçı-jurnalist Zakir Sadatlı söylədi. İki il əvvəl İraqa səfər edən jurnalist bu barədə Azərbaycan Televiziyasında «Gündoğandan-Günbatana» adlı 6 sənədli film də hazırlayıb. Bir az əvvəl isə onun səfər təəssüratlarını əks etdirən «İraq olsun» adlı kitabı çapdan çıxıb.**

**FÜZULİ HAQQINDA BİLDİKLƏRİMİZ...SƏHVDİR**

Ərəb və türkmən alimləri ilə söhbətlər edən və bu söhbətləri lentə alıb Azərbaycana gətirən Zakir bəy maraqlı bir nəticəyə gəlib: «İndiyədək Füzuli barəsində apardığımız araşdırmalar bir daha nəzərdən keçirilməlidir. Məlumatsızlıqdanmı, ya nədənsə indiyədək Füzuli haqqında olan informasiyalar, xüsusən də həyatı və tərcümeyi-halı ilə bağlı məlumatlara ədəbiyyatşünaslarımız yenidən baxmalıdır. Füzuli haqqında bildiklərimiz, təəssüf ki, səhvdir».

**FÜZULİNİN QƏBRİNİN ÜSTÜNDƏ SU HOVUZU TİKİBLƏR**

Zakir Sadatlı Məhəmməd Füzulinin məzarının İmam Hüseynin məzarından xeyli aralıda olduğunu dedi: «1979-cu ilə qədər Füzulinin məzarı böyük Bəktaşilər nəslinin nümayəndəsi olan və Dədə Bəktaşi deyilən bir şəxslə eyni günbəzin altında olub. İmam Hüseyn məqbərəsindən bir xeyli aralıda. Bu məzara qulluq edən Niyazi adında bir şəxs olub—ona kiliddar deyirlər—həmin adam bolqar türkü imiş. 1978-79-cu illərdə məzarı söküblər, günbəzi götürüblər - bunu həm ərəb, həm türkmən alimləri təsdiq elədi, Məhəmməd Mehdi Bayat adlı Füzulişünas alim də. Deyilənə görə, Füzulinin də, Dədə Bəktaşinin də cəsədi orada qalıb. Üstündə su hovuzu tikiblər. Mən o hovuzu da lentə almışam. Hovuzun içində bir gəmi maketi də düzəldib qoyublar—guya Nuhun gəmisidir...».

**FÜZULİYƏ SİMVOLİK BAŞDAŞI QOYULUB**

Zakir bəyin dediyinə görə, həmin dövrdə Türkiyə bu məsələyə qarışıb və etirazını bildirib: «Bu etirazdan sonra su hovuzundan xeyli aralıda simvolik bir başdaşı qoyublar ki, guya bu, Füzulinin qəbridir. Əslində isə Füzulinin məzarı bu gün Kərbəlada İmam Hüseynin məqbərəsinin yaxınlığında su hovuzunun altındadır».

**FÜZULİ DİKTATURA REJİMİNİN QURBANI OLUB**

Aparıcının: «Bunu etməkdə bir səbəb vardımı, axı hamı bilir ki, Füzuli dahi türk şairidir. Belə bir şairin kiminsə torpağında yatması ölkənin qürur qaynağı olmalıydı» -sualını Zakir Sadatlı belə cavabladı: «Bu, İraq rejiminin təbiətindən doğan bir məsələdir. O illərin siyasi mənzərəsi haqqında yəqin məlumatınız var. O dövrdə belə münasibət təkcə türkmənlərə, başqa xalqlara deyil, ərəblərin özlərinə qarşı da yönəlmişdi. Bu məsələ diktaturanın tiranların təbiətindən doğan bir məsələ idi. Füzuli də həmin məsələnin qurbanı olub».

**FÜZULİNİN ƏMİZADƏLƏRİ İLƏ GÖRÜŞDÜM**


Füzuli

Zakir Sadatlı Füzulinin mənsub olduğu tayfanın Kərkükdən 80 km. aralıda Karanaz köyündə yaşadığını söylədi: «Füzulinin əmizadələri Qaryağdı soyadını daşıyırlar. Kərkük yaxınlığındakı Tazə Xurmatı adlanan bir qəsəbədə yaşayırlar. Mən bu nəslin bir neçə nümayəndəsi ilə görüşdüm. Kərkük şəhərində yaşayan Vəli Yağmurun—o da Füzuli nəslindəndir—evinə də getdim, ailəsi ilə tanış oldum, hətta onun sazını da dinləmək qismətim oldu».

**KƏRKÜKDƏ FÜZULİ MƏHƏLLƏSİ VAR**

Zakir Sadatlı Füzulinin Azərbaycandan getməsinə də şübhə ilə yanaşır: «Bu bir az mübahisəli məsələdir. Həqiqətə uyğun deyil. Əslində Füzulinin nəsli Kərkük ellərindən bu yerlərə gəlib. Türkmənlər yaşayan ərazilərdə bu gün kifayət qədər Bayat adını daşıyan tayfalar, adamlar, kəndlər var. Bu onu göstərir ki, həmin arenada həm yayılmasına, həm də çoxluğuna görə həmin tayfa yerlidir, oralıdır. Füzuli özü doğulub Hillədə. Kərbəlada doğulmayıb. Amma Füzulinin atası Kərkükdən gedib. Orada Kərkük qalası var. Böyük qaladır -bir şəhər boyda. Həmin yerdə indi də Füzuli məhəlləsi var. Həmin qalada 4 peyğəmbər dəfn olunub».

**BAX, BU BİZİK!**

Yazıçının fikrincə, Kərkük şəhəri və orada yaşayan insanlar bizim ilkinliyimizdir: «Əgər türk xalqlarının ilkinliyinə nəzər salmaq istəyirsinizsə, mütləq onları görməlisən. Onları görəndə, insan öz-özünü görür. Sanki ruhun sahilinin o biri tayını görürsən və deyirsən—bax, bu bizik».

**İMAM HÜSEYN MƏQBƏRƏSİNDƏKİ FÜZULİ GUŞƏSİ**

Zakir Sadatlı İmam Hüseyn məqbərəsindən də danışdı: «Məqbərənin 10 qapısı var. Onlardan biri «Qiblə qapısı» adlanır. Ora girəndə sağ tərəfdə birinci qapı Füzuli guşəsidir. Şəklini də qoyublar, harada doğulduğunu qeyd ediblər».

**FÜZULİNİ DUSTAQLIQDAN QURTARMAQ LAZIMDIR**

Aparıcının «bəs axı məzarı hovuzun altındadır» söylədiniz-sualının cavabında Zakir Sadatlı: «Təbii, onu mütləq dustaqlıqdan azad etmək lazımdır» -dedi.

**«İz» proqramını Azadliqradiosu.az saytından dinləyə bilərsiniz.**

***Sevda İsmayıllı***

# 9 mənzil 36 yazıçı arasında necə bölünəcək?


Azərbaycan Yazıçılar Birliyinin binası

*Azərbaycan Yazıçılar Birliyi (AYB) 9 mənzili 36 yazıçı arasında bölüşdürmək fikrindədir. Bu xəbəri APA-ya AYB-nin mətbuat katibi Ədalət Əsgəroğlu bildirib. Onun sözlərinə görə, AYB-yə 2004-cü ildən «Abidə» firmasının Bakının Zərgərpalan küçəsində tikdiyi 120 mənzildən ibarət binasında 9 mənzil verilib: «Azərbaycan Yazıçılar Birliyinin mənzil siyahısında 40-dan artıq adamın adı var. Mənzil verilməsi 36 nəfərə şamil edilib. Bu qərarın birlik rəhbərliyinə aidiyyəti yoxdur. Yazıçılar Birliyinin nəzdində bununla bağlı komissiya yaradılıb. Komissiyanın sədri Birliyin Həmkarlar İttifaqı Təşkilatının sədri Füruzə Məmmədlidir. Komissiyanın qərarı ilə mənzilə ehtiyacı olan yazıçıların hər birinin istəyinin ödənilməsi qərara alınıb».*

9 mənzilin 36 yazıçı arasında necə bölünəcəyinə gəlincə, Ə. Əsgəroğlu bildirib ki, sözügedən bina şəhərin mərkəzində yerləşdiyindən ordakı mənzillər yaxşı qiymətə satıla bilər: «Mənzillərin ümumi həcmi 945 kvadratmetrdir. Qərara əsasən, 1 mənzil 4 nəfər arasında bölünəcək. Həmin pula onlar şəhərin başqa yerlərində özlərinə ev ala bilərlər. Mənzillərdən birini ancaq bir adamın alması, heç kimlə bölməməsi mümkün deyil. Çünki digər mənzilə ehtiyacı olanların da balaları var».

Ə.Əsgəroğlunun sözlərinə görə, mənzil sahibləri arasında püşk atılacaq və mənzilin qiyməti onun sahibləri arasında bərabər bölünəcək. Ədalət Əsgəroğlu AzadlıqRadiosuna müsahibəsində xəbəri təsdiqlədi. Müxbirin: «Mənzilləri ev sahibləri özlərimi satacaq» sualına belə cavab verdi:

«Bəli, bir mənzil 105 kvadratdır. Əgər, məsələn, onu 120 min manata sata bilsələr, hərəyə 30 min manat düşəcək. Düzdür, bu pula mərkəzdə ev almaq mümkün deyil, amma Masazırda mümkündür».

«Mənzil sahibləri bu şərtə razıdırmı, bəlkə bu 9 mənzil elə 9 adama veriləydi. Qalanlar da başqa vaxt alardı...» sualının cavabında isə AYB yetkilisi dedi: «Hamı razıdır. Ən yaxşı çıxış yolu budur. Bir də bizə nə vaxt mənzil veriləcəyi bilinmir».

***Sevda İsmayıllı***

# Hekayə 20-liyi elan edildi



*AzadlıqRadiosunun mədəniyyət portalı olan oxuzalı.az-da keçirilən "Ədəbi Azadlıq-2012" Milli Müsabiqəsinin hekayə nominasiyası üzrə 20-liyi açıqlandı. Müsabiqəyə qəbul edilmiş 180-nə yaxın müəllifin hekayələrini oxuyan münsiflərin hər biri onlar arasından öz 20-liyini seçib. Biz də onların göndərdiyi 20-liklərdəki balları adi qaydada toplamaqla müsabiqənin yekun 20-liyini hazırlamışıq. İyirmiliyə keçid balı 19 olub. İki hekayə 19 bal topladığından 20-liyə 21 hekayə daxildir.*

**Beləliklə, 20-liyə düşən hekayələr (sıralama şərtidir):**

*Aslan Quliyev. "Alacəhrə"*
*CAVİDAN. "Tarladakı qadınlar"*
*Alpay Azər. "Hər şey qaydasındadı"*
*Alik Əlioğlu. "Qovun onu bu şəhərdən"*
*Anar Mahmudov. "Yutub"*
*Şəbnəm Xeyrulla. "Qan pulu"*
*Anar Fərəcov. "Пятница, на балконе"*
*Rüqəyyə Kəbiri. "Mavayıl"*
*Sevda Sultanova. "Tarkovski"*
*Şirməmməd Nəzərli. "Səhləb çiçəyi"*
*Reyhan Yusifqızı. "Bir gecənin sirri"*
*Azər Həsənli (Ataqam). "Şrödingerin qara pişiyi"*
*Rəşid Bərgüşadlı. "İşıq pulu"*
*NAHID. "Dərdimi çək"*
*Zinəddin Babayev. "Donuz cənnəti"*
*Şəhriyar Del Gerani. "İnsult..."*
*Fərid Hüseyn. "Göz dağı"*
*Ceyhun Gündüz. "Onun möcüzəsi"*
*Təranə Vahidqızı. "Tapılmayan torpaq"*
*Nəriman Əbdürrəhmanlı. "Kəpənək"*
*Əli Həsənli. "Şirrah"*

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun



Əsəd Cahangir: **Bütün ölkə imanovlaşır**



**Aydan Salahova Moskvadakı qalereyasını bağlayır**



**Prezident təqaüdünü kimə və nəyə görə verirlər?**



**Azərbaycanlıların qəzəbinə səbəb olmuş karikatura müəllifi mühacirətdə kitab yazıb**



Orxan Fikrətoğlu: **"Vicdan əzabi çəkirəm Azərbaycanda baş verən bir çox hadisələrə görə"**

# ABŞ prezidenti illik gəlirini açıqlayıb



*ABŞ prezidenti Barak Obama 2011-ci il üçün gəlir bəyannaməsini elan edib. Ağ Evin məlumatına görə, Barak Obamanın və birinci ledi Mişel Obamanın keçən il birlikdə gəlirləri 789 min 674 dollar olub. Bu məbləğin yarısı Obamanın prezident kimi aldığı maaşdır. Digər yarısını isə Obama yazdığı kitablardan qonorar kimi alıb.*

Obama keçən il 166 min dollar vergi ödəyib. Prezident və birinci ledi qazandıqlarının 22 faizini xeyriyyəyə veriblər. Onlar 39 müxtəlif xeyriyyə cəmiyyətlərinə 179 min dollar pul veriblər. Prezident ailəsi ən çox pulu müharibədə şikəst olan veteranlara kömək edən fonda verib.

# Rusiya prezidentinin və baş nazirin nəyi var?

*Rusiya prezidenti Dmitri Medvedev və baş nazir Vladimir Putin illik gəlirlərini açıqlayıblar. Prezidentin mətbuat xidmətinin məlumatına görə, Dmitri Medvedev və birinci ledi Svetlana Medvedevanın 367,8 kvadratmetrlik mənzili var. Prezidentin Rusiya banklarında ümumilikdə 5 milyon 178 min rublluq 15 hesabı var.*

Yəni indiki məzənnə ilə banklarda 170 min dollar pulu var. D. Medvedevin bundan başqa 1948-ci il buraxılışı olan "Pobeda" - "QAZ 20" və 1962-ci il istehsalı olan "Volqa" - "QAZ 21" minik avtomobilləri var.

Svetlana Medvedevanın isə 1999-cu ildə istehsal olunmuş "Volkswagen Golf" avtomobili var. Birinci ledinin 3 bank hesabı var. Bu hesablarda 26 rubl var. (Görəsən, 26 rubl olan 3 hesabı birinci ledi niyə açıb?)

Qanunla prezidentin övladlarının da gəlirləri açıqlanmalıdır. Rusiya prezidentinin İlya adlı bir oğlu var.

Prezident ofisinin məlumatına görə, yetkinlik yaşına çatmayan İlya Medvedevin keçən il gəliri olmayıb. Onun əmlakı, qiymətli kağızları, banklarda pulu yoxdur.

Rusiya hökumətinin mətbuat xidmətinin məlumatına görə, Rusiyanın baş naziri Vladimir Putinin 2011-ci ildə gəliri 3 milyon 662 min rubl olub. Yəni təxminən 120 min dollar qazanıb. Bu, 2010 –cu ildəkindən xeyli azdır. 2010-cu ildə isə Putinin gəliri 5 milyon 42 min rubl olub.

Yəni təxminən 166 min dollar məbləğində pul qazanmışdı.

Putinin mülkiyyətində ümumi sahəsi 1500 kvadratmetr olan mənzillər, qaraj və həyətyanı sahə var. Bundan başqa onun iki "köhnə Volqası" - "QAZ M21", "QAZ M21P" və "Niva" avtomobill var. Bunlar qanunun tələb etdiyi rəsmi gəlir bəyannaməsidir.

Təkcə media məlumatlarına görə yox, həm də Qərbdə aparılan araşdrmalara görə isə, Putinin real gəliri və mülkiyyəti milyardlarla dollar məbləğindədir. Ancaq bunlar hələ ki, sübut olunmamış rəqəmlərdir.

***Elxan Nəsibli***



# AzadlıqFM:

Hər həftənin cümə günü **14:00-15:00** arasında **Facebook** məkanında baş verən maraqlı olayların müzakirəsinə qatıla bilərsiniz. Facebookda xüsusi fəallığı ilə fərqlənən şəxslər verilişə dəvət edilir. Veriliş eyni vaxtda **AzadlıqRadiosunun Facebook** səhifəsində də yayımlanır ki, Facebook istifadəçiləri canlı olaraq şərhlər yaza bilsinlər. **Azadlıq FM**-in arxiv səhifəsi də var.

# AzadlıqRadiosunu Androiddə dinləmək olar




**Əvvəllər AzadlıqRadiosunu canlı olaraq mobil telefonlarda necə dinləmək barədə məlumat vermişdik.**

Bildiririk ki, indi xüsusi mobil App telefonuna yükləməklə AzadlıqRadiosunu Android əməliyyat sistemi ilə işləyən mobil telefonlarda da izləmək olur.

Əlavəni yükləməklə mobil telefonunda nələr əldə edirsən:

- Gündə 24 saat və həftənin 7 günü Radionu canlı, ya da arxivdən dinləyərkən yazıları oxumaq,
- Səhifəyə internetdə olmadan - offline rejimdə baxmaq üçün yazıları, videoları və ya audionu yükləmək,
- Audioları birbaşa arxivdən dinləmək (podcast),
- AzadlıqRadiosunun yayım cədvəlinə baxıb, növbəti proqramlar haqda əvvəlcədən xəbər tutmaq,
- Səsləri audio arxivdə axtarmaq,
- Təcili xəbərin, foto və ya videon varsa, bu əlavəmizdən istifadə etməklə paylaşmaq,
- Xəbərlərini, video və fotolarını e-mail, Twitter və Facebook vasitəsilə paylaşmaq.

**Əlavəni** http://www.azadliq.org/info/mobile_new/2178.html internet ünvanından telefona yükləmək olar.

# «Eurovision»a gələnlərə sadələşdirilmiş viza verilməsinə başlandı




*Azərbaycan «Eurovision-2012» mahnı müsabiqəsi ilə bağlı ölkəyə gələcək əcnəbilərə sadələşdirilmiş viza verməyə başlayıb. Məlumatı AzərTAc yayıb. Müsabiqə iştirakçısı olan ölkələrdən gələnlər vizaları Azərbaycan Xarici İşlər Nazirliyi Konsulluq İdarəsinin respublikadakı beynəlxalq hava limanlarındakı bölmələrində ala bilərlər.*

Vizanın verilməsi üçün ya mahnı müsabiqəsinin Təşkilat Komitəsindən verilmiş rəsmi dəvət məktubu, ya da Avropa Yayımları Birliyinin qaydalarına uyğun akkreditasiyadan keçməni təsdiqləyən sənəd. Viza almaq üçün «Eurovision-2012» konsertlərinə bilet, yaxud da biletin əldə olunmasını təsdiqləyən sənədlərdən biri də kafidir. Bu halda vizalar aprelin 15-dən iyunun 1-dək verilir. Akkreditasiyadan keçmiş jurnalist və fan-klub üzvlərinə, mahnı müsabiqəsinin konsertlərinə bilet alanların vizalarının müddəti isə mayın 10-dan iyunun 1-dək davam edəcək.

## "Quran"ı pulsuz paylamaq olmaz?

*Almaniyadakı müsəlman icmalarından birinin keçirdiyi maarifləndirmə aksiyası yerli siyasətçiləri qəzəbləndirib. Onlar icma tərəfindən vətəndaşlara pulsuz "Quran" paylamasına etirazlarını bildiriblər. "Oxu!" aksiyası 2011-ci ilin noyabrından start götürüb. Layihənin təşəbbüskarı 47 yaşlı iş adamı İbrahim Abu Nadji Almaniyadakı müsəlmanların hamısını aksiyaya qoşulmağa çağırıb: "Qoy, hər kəs öz alman qonşusuna "Quran"ın tərcümə edilmiş nüsxəsini hədiyyə etsin. Onlar bu kitabı oxusalar, bizi radikal adlandırmazlar".*

Aksiya zamanı Almaniyanın 35 şəhərinin küçələrində xüsusi stendlər qoyulub ki, burada arzu edənlər "Qurani-Kərim"in alman dilində nüsxəsini hədiyyə ala biliblər. Kitab hətta uşaq bağçaları, məktəb və həbsxanalarda da yayılıb. Artıq 300 min "Quran" paylanlılıb.

**İSLAMI YOX, SƏLƏFİLİYİ TƏBLİĞ EDİRLƏR**

Die Welt yazır ki, alman siyasətçiləri isə bu təşəbbüsü aqressiya kimi qiymətləndiriblər, onun təşəbbüskarları sələfiliyi yaymaqda günahlandırıblar. Deputat Guenter Krings qəzetə müsahibəsində deyib ki, "radikal sələf qruplaşması öz aqressiv yanaşması ilə ölkədəki Dini aləmi dağıtmağa çalışır".

Yaşıllar Partiyasının nümayəndəsi Josef Winkler isə, ümumiyyətlə, bu layihənin polis nəzarəti altına götürülməsini istəyib.

**"QURAN" REKLAM BUKLETİDİR MƏGƏR?**

Maraqlısı odur ki, elə müsəlmanlar arasında da layihəni bəyənməyənlər tapılır. Almaniya Müsəlmanları Mərkəzi Şurasının nümayəndəsi Ayman Mayzek deyib ki, "Quran" reklam bukleti deyil ki, onu hər kəsə paylayasan. Bu arada Ebner & Spiegel mətbəəsi "Oxu" aksiyası üçün "Quran" çap etməkdən imtina edib.

# AzadlıqRadiosunda verilişlər:

| | |
|---|---|
| 8:00 | AzadlıqFM / Qafqaz Qovşağı /Azadlıq Bölgələrdə / Kontekst / Korrupsiyametr/ Qaynar Xətt |
| 9:00 | İz / Korrupsiyametr / İşdən sonra |
| 10:05 | Qərb musiqisi |
| 12:05 | AzadlıqFM / Qaynar Xətt / Pen Club / İz / Korrupsiyametr |
| 13:05 | Qərb musiqisi |
| 14:05 | 14-24 / Qaynar Xətt / Azadlıq Bölgələrdə / Pen club / AzadlıqFM / İz / Korrupsiyametr |
| 15:00 | Xəbərlər (şənbə, bazar) |
| 15:05 | Qərb musiqisi. AzadlıqFM / Korrupsiyametr (şənbə-bazar) |
| 15:30 | Amerikanın Səsi / İz |
| 16:00 | Xəbərlər (şənbə, bazar) |
| 16:05 | Qərb musiqisi / İşdən sonra (şənbə, bazar) |
| 17:00 | Xəbərlər |
| 17:05 | İşdən sonra / Korrupsiyametr (hər cümə axşamı) |
| 18:00 | Xəbərlər |
| 18:05 | İşdən sonra / Kontekst / Online-vəkil (şənbə) |
| 19:00 | Qərb musiqisi |
| 20:00 | Xəbərlər |
| 20:05 | Kontekst / Qaynar Xətt / Pen club |
| 20:30 | 14-24 / Qaynar Xətt / İslam və demokratiya / Pen club / İz / Korrupsiyametr |
| 21:00 | Qərb musiqisi |
| 22:00 | Xəbərlər |
| 22:05 | Kontekst / 14-24 / Qafqaz Qovşağı |
| 23:00 | Xəbərlər |
| 23:05 | İşdən sonra / İz / Azadlıq bölgələrdə / 14-24 |
| 00:00 - 8:00 | Amerikanın Səsi / Qərb musiqisi |

**Qeyd:** Kəsr xətti ilə verilmiş – eyni saatlara düşən verilişlər həftənin günlərindən asılı olaraq növbə ilə təkrar gedir...

# Simsiz teleqraf

## Analoqu olmayan Suraxanı yolu...



***21 əsrin əvvəlləri. Yükləyib: Bülbüləli***

Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa bizə göndərin. Materialı kompyuterinizdən yükləmə səhifəsinə daxil olmaqla, yaxud MMS kimi mobil telefondan yollaya bilərsiniz. Ehtiyac varsa anonimliyi təmin edirik.

**Azərbaycandan:** (050) 213-56-30,

**Xaricdən:** (+420) 602 517 052

**Görüntüləri elektron poçtla da yollamaq olar:**

efir@azadliqradiosu.az

# AzadliqRadiosu.az®

## Multimedia

## Son videolar:



Dünyada (VİDEO)

Ermənistanda Azərbaycan Film Festivalına etiraz



Dünyada (VİDEO)

Batan Titanikin arxiv görüntüləri



Pen Club videoları

Orxan Fikrətoğlu "Pen klub" proqramında!



Azərbaycanda (VIDEO)

Beynəlxalq Heydər Əliyev Düşüncə Mərkəzi



AzadlıqFM arxivi

İnternetdən ən yaxşı istifadə edən dövlət qurumu



Dünyada (VİDEO)

Alkoqola görə 80 şallaq cəzası

**Qaynar Xətt:** 436-77-41

**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30

Bizimlə əlaqə:

**E-mail:** efir@AzadliqRadiosu.az

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilib, №3080

**"Fərqli düşüncə" jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor: Ş.A.Namazov

Bülleten redaksiyada səhifələnib, "Çap Evi" mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tbilisi prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı, F.Şahbazov küçəsi, 18
email:fdjurnal@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz